# CƏLİLABADIN KƏNDLƏRİNƏ TƏBİİ QAZ ÇƏKİLİŞİ

Cəlilabad rayonunda iqtisadiyyat və mədəni quruculuq, sosial sahənin ehtiyaclarının təmin olunması, əhalinin güzəranının yaxşılaşdırılması sahələrində mühüm tədbirlər həyata keçirilir. Bu Prezident İlham Əliyevin rayona son səfəri zamanı verdiyi tapşırığa əsasən rayonun yaşayış məntəqələrinə təbii qaz xətlərinin çəkilişi sürətlə davam etdirilir. Həmin məqsədlə yeni qazpaylayıcı stansiyanın tikintisi başa çatdırılmış, Cəlilabad şəhəri və Uzuntəpə kəndi arasındakı orta təzyiqli yeraltı qaz kəmərinin xeyli hissəsi polietilen borularla əvəz edilmişdir. May ayında Seyidbazar kəndində 163, Hasıllı kəndində 80, Hacıismayıllı kəndində 73 sakinin evlərində mavi yanacaq şölələnmişdir.

Bu günlərdə isə rayonun Söyüdlü və Muğan kəndlərinə təbii qaz verilməsinin açılışı olmuşdur. Söyüdlü kəndinə 17227 metr uzunluğunda qaz xətləri çəkilmiş, 209 abonentə mavi yanacaq verilmişdir. Muğan kəndində isə 38434 metr qaz xətti çəkilmiş, 467 ev qazla təmin olunmuşdur. Abonentlərin hamısı sayğaclaşdırılmışdır. Bu münasibətlə təşkil olunmuş açılış mərasimində rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov, Lənkəran Regional Qaz İstismar İdarəsinin rəisi Qismət Əsgərov, idarənin rəis müavini İxtiyar Seyfullayev və Cəlilabad bölməsinin rəisi Günəşli Nuralıyev çıxış etmişlər.

**Sabir MUSTAFAYEV,**
**"Respublika".**